Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"

*İsa Həbibbəyli - 70*

# Milli ədəbi-nəzəri düşüncənin öncülü

## Və ya Heydər Əliyevşünaslığın böyük nümayəndəsi

(Birinci yazı)

**Çağdaş nəzəri-estetik fikrimizin korifeyi, akademik İsa Həbibbəylinin 50 illik zəngin və çoxşaxəli yaradıcılığını bir neçə mərhələyə bölmək olar. 70-80-ci illəri özündə ehtiva edən birinci mərhələnin özülündə həmin dövrün qabaqcıl və demokratik təmayüllü ədəbi-nəzəri axtarışlarının üzvi hissəsini təşkil edən romantizmşünaslıq sahəsindəki tədqiqatlar dayanır.**

Özünəqədərki ədəbiyyatşünaslığın və ustad ədəbiyyatşünasların XX yüzil ədəbiyyatı, xüsusən, romantik poeziya və dramaturgiya sahəsindəki araşdırmalarını davam və inkişaf etdirən gənc, döyüşkən alim, nəhayət, bu sahədəki elmi axtarış və yeniliklərini ümumiləşdirib, ədəbi ictimaiyyətə təqdim edir. 80-ci illərin birinci yarısında işıq üzü görən "Romantik lirikanın imkanları" kitabı cavan və romantizmşünas alimin sabiq Sovet İttifaqı imperiyasının hələ də kəsərdən düşmədiyi bir vaxtda, Hadiyə, Cavidə, Cavada və romantizmə düşmənçilikdən əl çəkilmədiyi, qadağalar və qətliamların hələ də köhnəlmədiyi bir zamanda cəmiyyətimizə, millətimizə, elm dünyasına ilk və sanballı töhfəsi idi. Zatən, yaxın gələcəyin böyük Mirzə Cəlilşünası və mahir realizmşünası şəhid şairlərimiz Hadi, Cavid və Cavad romantizminin mürəkkəb rəmzlər, bədii-fəlsəfi metaforalar və işarələr dünyasından realizmin əzəmətli və sərt həqiqətlər yoluna çıxmağı hədəfə almışdı. Və Azərbaycan elmində akademik İsa Həbibbəyli epoxasının təməl daşları qoyulurdu...

Ümummilli lider Heydər Əliyevin dövlətçilik təliminin tarixi və müasir əhəmiyyətini dərindən araşdıran akademik İsa Həbibbəyli yazır: "Görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən bütün dünyanın diqqətini cəlb etmiş qüdrətli şəxsiyyətdir. Xalqımız üçün Heydər Əliyev yeni Azərbaycanın böyük yaradıcısı və qurucusu, əsl mənada xilaskar və müdrik rəhbərdir. Heydər Əliyevin beynəlxalq aləmdə, dünya siyasəti miqyasında da mühüm simalardan biri hesab edilməsi, hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir... Buna görədir ki, dünyanın müxtəlif ölkələrində Heydər Əliyev haqqında ciddi araşdırmalar aparılmış, ona həsr olunmuş çoxsaylı elmi, siyasi və bədii əsərlər yazılmışdır. Heydər Əliyevin adı həmişəlik olaraq Azərbaycan xalqının və böyük siyasətin tarixinə daxil olmuşdur." Həqiqətən də, XX yüzilliyin 90-cı illərinin əvvəllərindən etibarən müstəqillik qazanmış vətənimizdə dinamik tərzdə və sürətlə inkişaf edən yeni elm sahələrindən biri, şübhəsiz ki, Heydər Əliyevşünaslıqdır. Müasir humanitar düşüncənin və ictimai fikrin inkişaf qanunauyğunluqları və istiqamətlərini özündə təcəssüm etdirən Heydər Əliyevşünaslıq, çağdaş Azərbaycan mənəviyyatının və mədəniyyətinin yüksəlişinə təkan verməklə, ədəbiyyat və incəsənətimizin bütün sahələrində özünü nümayiş etdirməkdədir. Azərbaycanın milli istiqlalını itirməsi təhlükəsi 90-cı illərin ortalarına qədər gizli və aşkar şəkillərdə özünü büruzə verirdi. Azərbaycan tarixinin məhz bu cür mürəkkəb və məsuliyyətli dövründə Heydər Əliyevin əvəzedilməz və misilsiz şəxsiyyətinin, dövlətçilik fəaliyyətinin həlledici əhəmiyyəti akademik İsa Həbibbəyli tərəfindən aydın və sərrast ifadə edilmiş, ümumiləşdirilmişdir: "Bütövlükdə Azərbaycan Respublikası Ulu Öndər, görkəmli dövlət xadimi, Milli Qurtuluşun banisi, böyük xilaskarlıq missiyasını bacarıqla həyata keçirmiş Heydər Əliyevin müstəqillik və milli dövlətçilik ideyalarını dünyada gedən proseslərə, ölkənin reallıqlarına uyğun şəkildə yaradıcılıqla inkişaf etdirərək hazırda böyük sabahlara doğru qətiyyətlə addımlayır. Milli Qurtuluş - milli dirçəlişin möhkəm və etibarlı bünövrəsi kimi böyük gələcəyə yol açır. Bu mənada Milli Qurtuluş - müstəqil Azərbaycanın milli oyanışının doğan günəşidir. İnkişaf etmiş müstəqil Azərbaycan Milli Qurtuluşun parlaq nümunəsidir" .



Müstəqil Azərbaycan inkişaf etdikcə və dünya miqyasında yeni-yeni zəfərlərə imza atdıqca, Heydər Əliyevşünaslıq elminin hüdudları və üfüqləri daha da genişlənir. Müstəqillik illərində sürətlə inkişaf etməyə və çiçəklənməyə başlayan bu çoxsahəli elm - Heydər Əliyevşünaslıq Azərbaycanın ictimai, siyasi, iqtisadi və mədəni fikir sahələrinin, bütün milli humanitar düşüncəmizin irəliyə doğru hərəkətini, təcrübə və nailiyyətlərini özündə birləşdirən, ümumiləşdirən qüdrətli və universal bir elm sahəsinə çevrilməkdədir. Məhz bu həqiqətlərə və reallıqlara əsaslanaraq, akademik İsa Həbibbəyli ictimai-estetik fikrimizin gərgin və səmərəli axtarışlarını ümumiləşdirərək yazır: "Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyəti həmişə ölkənin və xalqın taleyi və müqəddəratı, xilası və inkişafı ilə üzvi vəhdətdə dəyərləndirilir. Haqlı olaraq, Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin, bütövlükdə yeni Azərbaycanın qüdrətli yaradıcısı və böyük qurucusu hesab edilir. Müstəqil Azərbaycan Heydər Əliyevin möhtəşəm əsəridir. Görkəmli dövlət xadimi Heydər Əliyevin adı və xidmətləri ilə bağlı hər bir hadisə Azərbaycanın müstəqillik tarixinin qiymətli səhifələrini təşkil edir. Sözün geniş mənasında Heydər Əliyev Azərbaycançılıq idealının rəmzinə çevrilmişdir. Heydər Əliyevin çətin, keşməkeşli və mənalı həyatı, böyük mübarizə yolu müstəqil Azərbaycan dövlətinin epopeyasıdır" .

Çağdaş Azərbaycan ədəbiyyatının milli istiqlal idealı barəsində düşünərkən, öncə yada düşən Heydər Əliyevin fədakar və zəngin dövlətçilik fəaliyyətidir. Başqa sözlə, Heydər Əliyev idealı milli istiqlal idealımızın əsasını və nüvəsini təşkil edir. XX yüzilliyin ikinci yarısından etibarən, xüsusən, 60-70-ci illərdən başlayaraq formalaşan Heydər Əliyevşünaslıq elmi Ulu Öndərin 90-cı illərin əvvəllərində ikinci dəfə ölkəmizin rəhbərliyinə qayıdışından sonra böyük addımlarla inkişaf etməyə başladı. Əgər sabiq Sovet İttifaqı imperiyasının çiçəkləndiyi və yüksəliş dövrünü keçirdiyi 60-80-ci illərdə Heydər Əliyev şəxsiyyəti və obrazı milli azadlıq arzularının hədəfini və məzmununu özündə ifadə edirdisə, artıq 90-cı illərdən etibarən Heydər Əliyev idealı zamanın və cəmiyyətin gələcəyə doğru hərəkətini stimullaşdıran əsas milli mənəvi enerji mənbəyinə çevrilməyə başladı. Azərbaycan xalqının 80-ci illərin sonları və 90-cı illərin əvvəllərində xarici və daxili düşmənlərin amansız və xain hücumları nəticəsində düşdüyü ağır vəziyyətdən xilas olması üçün ictimai-siyasi, fəlsəfi və estetik təfəkkürün bütün sahələri hərəkətə gəlmiş, sanki bütün güclərini səfərbər etmişdilər. Milli talenin və gələcəyin müəyyən edilməsi üçün yaxın və uzaq tarixlər təhlil edilir, milli yaddaş süzgəcindən keçirilirdi. Vətən şəxsiyyət və ideal axtarışlarında son dərəcə inadlı və israrlı idi. Məhz belə bir şəraitdə ədəbiyyat xalqın iradəsi və arzusu ilə ötən əsrin 90-cı illərində öz seçimini etdi; Azərbaycanın son 30 illik tarixində açıq və ya gizli, rəsmi və ya qeyri-rəsmi şəkildə onun taleyinə, həyat və mübarizə yoluna həlledici surətdə təsir etmiş, onlarla sənətkarı şər və böhtan imperiyasının dəhşətli hücumlarından himayə etmiş insanı özünə ideal seçdi. Beləliklə, Heydər Əliyev şəxsiyyəti və yolu milli ədəbiyyatımızın idealına çevrildi.

Ümummilli liderin 95 illik yubileyini bütün vətənimiz təntənə ilə qeyd etdiyi bir zamanda "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" (2018) kitabını "Elm və təhsil" nəşriyyatı yüksək poliqrafik səviyyədə və nəfis şəkildə çap etdi. Bu fundamental kitab Azərbaycan Milli Elmlər Akademiyası, xüsusən, Nizami Gəncəvi adına Ədəbiyyat institutunun ümumdövlət və ümumxalq bayramına qiymətli töhfəsidir. Çağdaş humanitar və elmi-nəzəri düşüncənin nailiyyəti kimi meydana çıxmış monoqrafik tədqiqat AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ümumi redaktəsi ilə nəşrə hazırlanmışdır. Altı fəsildən ibarət olan möhtəşəm kitabın "Giriş"inin və ilk fəslinin müəllifi də akademik İsa Həbibbəylidir.

"Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" kitabında, ümumiyyətlə, ədəbiyyatda, xüsusən də, poeziya və nəsrdə görkəmli dövlət xadimi və böyük xilaskarın obrazının canlandırılmasından bəhs edilir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun müəlliflər kollektivinin apardıqları elmi tədqiqat işləri əsasında yazılmış monoqrafiyada ədəbiyyatda tarixi şəxsiyyətin obrazının yaradılmasının geniş imkanlarına elmi cəhətdən nəzər salınmış, yazıçı və şairlərin bu yöndəki yaradıcılıq axtarışlarından söz açılmışdır. Kitab ədəbiyyatda Heydər Əliyevin bədii obrazı məsələsinə həsr olunmuş birinci monoqrafik tədqiqat əsəri kimi mühüm əhəmiyyətə malik olan elmi nəşrdir. Ulu Öndər haqqında indiyə kimi yazılmış elmi, ədəbi, tarixi-siyasi və bədii-publisist əsərlərdə, əsasən, böyük dövlət xadiminin xalqımız və ədəbiyyatımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edilmişsə, bu monoqrafik tədqiqatda ilk dəfə olaraq, xalqın və ədəbiyyatın Heydər Əliyevə sevgisindən, daha doğrusu, Heydər Əliyevin dövlətçilik fəaliyyətinin xalq qəlbindəki və ədəbiyyatdakı əks-sədasından söz açılır.

Akademik İsa Həbibbəylinin müəllifi olduğu "Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz" fəslində Azərbaycan ədəbiyyatının son yarım əsrdəki milli və estetik ideal axtarışları dərindən araşdırılır və ədəbiyyatımızın 90-cı illərə gəlib çatarkən hansı mənəvi ehtiyaclarla qarşılaşdığı elmi-nəzəri şəkildə ümumiləşdirilir. Bu kitabın və qeyd etdiyimiz fəslin ən mühüm uğurlarından biri odur ki, müəllif, Heydər Əliyev şəxsiyyətinin milli ideala çevrilməsi prosesini son dərəcə dəqiqliklə izləmiş və elmi-nəzəri cəhətdən əsaslandıra bilmişdir. Görkəmli alimin vurğuladığı kimi, məhz Heydər Əliyevin sayəsində XX yüzilliyin 70-80-ci illərindən etibarən Azərbaycan ədəbiyyatı milli-mənəvi dəyərləri daha ardıcıl və daha ehtiraslı vəsf etməyə başlamış və xalqın tarixi ilə bağlı mövzulara, şəxsiyyətlərə doğru böyük dönüş baş vermişdir. Bu isə nəticə etibarilə Azərbaycanın ictimai-siyasi və milli-mənəvi həyatında milli azadlıq və ideallar uğrunda mübarizənin böyük hərəkata çevrilməsinə gətirib çıxarmışdır.

Ulu Öndərin Azərbaycan ədəbiyyatına və yazıçılara xüsusi qayğısı və həssas münasibəti ədəbi-mədəni mühitdə qarşılıqlı sevgi və məhəbbətlə qarşılanmışdır. Məhz bu qarşılıqlı sevgi və sayğı nəticəsində Heydər Əliyevin müasirləri olmuş yazıçı və şairlərin əsərlərində böyük siyasi xadimin atdığı tarixi addımlar özünün real bədii əks-sədasını yaratmışdır. Başqa sözlə, söz sənəti Heydər Əliyevin fəaliyyətinə, xüsusən də bu möhtəşəm və yorulmaz fəaliyyətin mühüm hadisələrinə fəal münasibət bildirərək, dahi şəxsiyyətə ümumxalq məhəbbətini ilhamla vəsf etmişdir. Bir cəhəti də ayrıca qeyd etməyi lazım bilirik ki, ümummilli lider Heydər Əliyev haqqında ən yaxşı bədii əsərlər, gözəl və fundamental ədəbi nümunələr daha çox onun hakimiyyəti dövründən sonrakı mərhələlərdə qələmə alınmışdır. Bununla Azərbaycan ədəbiyyatı iki mühüm məsələni həll etmişdir. Birincisi, Ulu Öndər haqqında yazılmış bədii əsərlərlə, ədəbiyyat, Azərbaycan xalqı və mənəvi mədəniyyəti qarşısında böyük xidmətləri olmuş dahi şəxsiyyətə öz borcunu yerinə yetirmişdir. İkincisi isə Azərbaycan ədəbiyyatı ölkəmizi və xalqımızı dövlət müstəqilliyinin inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsinə daim səfərbər etmək üçün müstəqil dövlətçiliyimizin banisini və onun əbədiyaşar ideallarını diqqət mərkəzinə çəkmişdir. Bu mənəvi-estetik və ədəbi-siyasi məqsədlər Heydər Əliyev ideal şəxsiyyətinin, ümummilli dövlətçilik fəaliyyətinin geniş miqyaslı bədii təsviri və tərənnümü vasitəsilə gerçəkləşdirilmişdir.

Akademik İsa Həbibbəylinin Ümummilli liderin idealının və obrazının ictimai gerçəkdən bədii həqiqətə, tarixi yaddaşdan ədəbi yaddaşa çevrilmə prosesinin estetik mərhələlərinə işıq salan aşağıdakı qlobal elmi-nəzəri mülahizələri diqqətə layiqdir: "Ən yeni dövr Azərbaycan ədəbiyyatının inkişafında Ümummilli lider Heydər Əliyevin ədəbiyyat siyasətinin böyük rolu və təsiri şəksizdir. Görkəmli dövlət xadimi Heydər Əliyev yeni Azərbaycan dövlətinin, eyni zamanda, bu dövlətin ədəbiyyat siyasətinin banisi və yaradıcısıdır. Əslində Azərbaycan xalqının son 50 ildəki ədəbiyyatı Heydər Əliyev epoxasının ədəbiyyatıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqillik dövrünün ədəbiyyatı haqqında Heydər Əliyev təlimini yeni müddəalarla zənginləşdirərək, yaradıcı şəkildə inkişaf etdirir. Ən yeni dövr Azərbaycan ədəbiyyatının qarşısında duran ən mühüm vəzifələrdən biri də yeni tarixi epoxanın fonunda görkəmli dövlət xadimi Heydər Əliyevin mükəmməl, hərtərəfli şəkildə işlənmiş, ciddi ədəbi-tarixi meyarlara cavab verən ümumiləşmiş parlaq bədii obrazını yaratmaqdan ibarətdir" .

Çağdaş humanitar düşüncəmizin və filologiyamızın flaqmanlarından birinin elmi-nəzəri epopeyanın epiloqu səciyyəsində və səviyyəsindəki aşağıdakı müddəaları XXI əsrin əsas bədii-estetik tövsiyələrindən biri kimi səslənir:

"Ümummilli lider Heydər Əliyevin bədii obrazını yaratmaq xalqımızın qəlbində Azərbaycana möhtəşəm heykəl ucaltmaq deməkdir. Ədəbiyyatda Heydər Əliyevin bədii obrazı geniş mənada bədii düşüncədə müasir Azərbaycanın obrazını əks etdirir" .

**Yaşar Qasımbəyli,**
**filologiya elmləri doktoru,**
**professor**

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.**